No: 01 2026
https://doi.org/10.64400/ea26-01-07
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# ƏHMƏD AĞAOĞLUNUN "SON POSTA" QƏZETİNDƏKİ YAZILARI VƏ MİLLİ-İDEOLOJİ GÖRÜŞLƏRİ

**Mahir QƏRİBOV**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
*Yazışılan müəllif: mahir_garibov@yahoo.com*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 03.03.2026*
*Nəşr edilmə tarixi: 17.03.2026*

**AÇAR SÖZLƏR:**
Son Posta qəzeti, siyasi publisistika, Cümhuriyyət dövrü, milli iradə, Sərbəst Fırka

**XÜLASƏ**
Türk dünyasının böyük mütəfəkkirlərindən olan Əhməd Ağaoğlu XIX əsrin sonu, XX əsrin əvvəllərində özünün bilik və bacarığı, ideya və görüşləri, mətbuat sahəsində xidmətləri ilə seçilən ziyalılardan olub. O, təqib və təzyiqlər səbəbiylə İstanbula gedəndə coğrafi baxımdan yerini dəyişsə də, ideya olaraq mübarizəsindən əl çəkmədi. Türklüyün inkişafı üçün açılmış bir çox cəmiyyətlərin qurucu üzvü oldu. "Hikmət", "Sırat-ı Müstakim", "Tercüman-ı Hakikat", "Türk Yurdu" kimi mətbu orqanlarda məqalələr yazdı. Bu məqalədə XX əsrin əvvəllərində Türkiyə Cümhuriyyətinin ictimai-siyasi həyatında mühüm rol oynamış "Son Posta" qəzetində Əhməd Ağaoğlunun publisistik fəaliyyəti araşdırılır. 1930-1931-ci illəri əhatə edən bu yazılar Ağaoğlunun demokratik idarəçilik, milli iradə, siyasi məsuliyyət və çoxpartiyalı sistemə dair baxışlarını əks etdirir. Məqalədə "Son Posta" qəzetinin yaranma tarixi, ideya istiqaməti, redaksiya heyəti və Cümhuriyyət dövrü mətbuatındakı yeri təhlil olunur. Eyni zamanda, Ağaoğlunun Sərbəst Cümhuriyyət Firqəsi dövründə qələmə aldığı məqalələr kontekstual şəkildə qiymətləndirilir və onların Türkiyədə siyasi publisistikanın inkişafına verdiyi töhfələr elmi baxımdan dəyərləndirilir.

## GİRİŞ

Əhməd bəy Ağaoğlu Azərbaycanın və Türkiyənin ictimai mühitində, düşüncə hayatında özünün imzası ilə seçilən bir şəxsiyətdir. Milli əqidə və fikir adamı olan Ağaoğlu 1923-cü ildə Türkiyədə Cümhuriyyətin elanından sonra siyasi, sosial və mədəni sahədə köklü dəyişikliklərin həyata keçirilməsində aktiv rol alır. Bu dəyişikliklərin mətbuatda da funksional və ideoloji baxımdan inkişafına şərait yaradır. O milli mücadiləsini sadəcə yazdığı əsərlər və irəli sürdüyü fikirlərlə əhatələndirməmiş, bir əqidə adamı olaraq düşüncələrin gerçəkləşməsi üçün var gücünü sərf etmişdir (1. Ali Asker, s.3). Cümhuriyyət dövrünün ilk illərində qəzetlər yalnız xəbər ötürən vasitələr yox, həm də ictimai rəyin formalaşmasında mühüm rol oynayan ideoloji platformalara çevrilmişdi. Belə qəzetlərdən biri də 1930-cu ildə İstanbulda nəşr olunmağa başlayan "Son Posta" qəzeti idi. "Son Posta" qəzetinin qurucuları Zəkəriyyə Sertel, Həlil Lütfi Dördüncü, Selim Raqıp və Ekrem Uşaklıgildir. Qəzet qısa müddət ərzində tənqidi mövqeyi, cəsarətli yazıları və müstəqil ideya xətti ilə Cümhuriyyət dövrünün mühüm müxalif mətbuat orqanlarından birinə çevrilmişdir. Qəzet demokratik dəyərlərin təşviqi, siyasi maarifləndirmə və ictimai müzakirələrin aparılması baxımından önəmli platforma rolunu oynamışdır. Redaksiya heyətində jurnalistlərlə yanaşı, siyasi mütəfəkkirlər və ədəbi yazarlar da təmsil olunurdu. Bu, qəzetin üslubunun analitik, tənqidi və maarifləndirici olmasını şərtləndirmişdir.

### Əhməd bəy Ağaoğlunun "Son Posta" qəzetindəki yazıları

Əhməd bəy Ağaoğlu "Son Posta" qəzetində dərc etdirdiyi yazılarla Cümhuriyyət dövrü Türkiyəsində siyasi publisistikanın aparıcı simalarından biri kimi çıxış etmişdir. Onun məqalələri əsasən milli iradə, parlament sistemi, çoxpartiyalı demokratiya, seçki hüququ və siyasi məsuliyyət mövzularına həsr olunmuşdur.

1930-cu ilin avqustunda yaradılan Sərbəst Cümhuriyyət Firqəsinin qurucularından biri olan Ağaoğlu, partiyanın fəaliyyət göstərdiyi qısa müddət ərzində öz mövqeyini mətbuat vasitəsilə açıq şəkildə ifadə etmişdir. Onun 18 oktyabr 1930-cu il tarixli "S. Fırkaya me'şum diyorlar. Şeamet nerededir?" adlı məqaləsində təkpartiyalı sistemin azadlıqları təmin edə bilməyəcəyi fikri əsaslandırılır və siyasi plüralizmin zəruriliyi vurğulanır. Əhməd Ağaoğlunun bu məqaləsində Sərbəst

Firqə dövründə yazdığı yazılar və siyasi partiyaya aid mövqeyini və fikirlərini açıq şəkildə əks etdirir. "Görünür ki, dostumuz Yunus Nadi bəyi istəmədən incitmişəm. Buna görə təəssüf edirəm.... Tək firqə ilə nəzarətin və azadlıqların təmin olunmasının mümkün olmadığını həm öz həyatımızdan, həm də digər mədəni millətlərin həyatından götürdüyüm nümunələrlə sübut etdim. Onun "qarışıqlıq" adlandırdığı şeyin isə əslində canlılığın təzahürü olduğunu izah etdim" (Ağaoğlu, 1930, s 1).

**Ağaoğlu publisistikasında millilik düşüncəsi**

Əhməd Ağaoğlu 31 oktyabr 1930-cu il tarixli "Milli İrade Bu Mudur?" məqaləsində milli iradənin formal deyil, real şəkildə təmsil olunması problemi qabardılır. Ağaoğlu həmin dövrdə Türkiyədə parlamentar sistem və demokratiya məsələlərini şərh edir, seçki, milli iradə, siyasi məsuliyyət və ictimai tənqid məsələlərinə toxunur.

Əhməd Ağaoğlu həmin məqaləsində Türkiyə Cümhuriyyətində milli iradə anlayışının mahiyyəti və onun real siyasi praktikada necə təmsil olunması problemini mərkəzə çəkir. Milli iradənin yalnız şüar və formal anlayış kimi istifadə olunmasını tənqid edir. Onun fikrincə, xalqın iradəsi seçkilər və parlament vasitəsilə real şəkildə ifadə olunmursa, "milli iradə" anlayışı məzmununu itirir. O, bu sualı konkret şəkildə qoyur: mövcud siyasi vəziyyət həqiqətən xalqın iradəsini əks etdirirmi? Təkpartiyalı siyasi quruluşun milli iradəni təmsil edə bilməyəcəyi ideyasını ön plana çıxarır. Ağaoğlu hesab edir ki, rəqabətsiz siyasi mühit, alternativ fikirlərin sıxışdırılması, müxalifətin legitim fəaliyyət imkanlarından məhrum edilməsi, milli iradənin təhrif olunmasına gətirib çıxarır. Bu baxımdan o, milli iradəni siyasi plüralizmlə birbaşa əlaqələndirir. Ağaoğlu seçkilərin yalnız texniki proses olmadığını vurğulayır. Onun fikrincə, seçkilər real seçim imkanı yaratmalıdır, xalqın iradəsi üzərində inzibati və siyasi təzyiqlər olmamalıdır, hakimiyyət özünü milli iradənin mütləq təmsilçisi kimi təqdim etməməlidir. Əks halda, milli iradə xalqın deyil, hakim siyasi dairələrin iradəsinə çevrilir. Məqalədə həmçinin Ağaoğlu milli iradənin demokratik məzmunu göstərir (Ağaoğlu (31 oktyabr 1930) s 4).

Ağaoğluya görə milli iradə fikir azadlığı, mətbuat azadlığı, müxalifətin mövcudluğu, siyasi məsuliyyət və ictimai nəzarət olmadan mümkün deyil. Bu şərtlər yoxdursa, "milli iradə" yalnız siyasi legitimlik vasitəsinə çevrilir (Sertel, (2001), s. 25). Əhməd bəy Ağaoğlunun demokratik idarəçilik anlayışını, parlamentarizmə bağlılığını, siyasi məsuliyyət və plüralizm mövqeyini aydın şəkildə ifadə edən proqram xarakterli publisistik yazılarından biridir. Bu yazılarda hökumətin və siyasi partiyaların xalq iradəsini lazımi səviyyədə təmsil etməməsi məsələsi qabardılır. Bunun nəticəsi olaraq məqalələr dövrün oxucuları arasında geniş yayılır, ictimai müzakirələrə səbəb olur və siyasi publisistikanın nümunəvi yazıları kimi qəbul edilir. Hətta digər qəzet və jurnallarda bu mövzularda polemikalar aparılır.

Ağaoğlunun yazıları həm ictimai-siyasi tənqidə açıq, həm də elmi-publisistik üslubda qələmə alınmışdır. Qəzetin oxucu kütləsinə gəldikdə isə, "Son Posta" həmin dövrdə geniş yayılmış qəzetlərdən biri olmuş və bu yazılar geniş auditoriyaya çatdırılmışdır. Ağaoğlu bu yazılarında parlament sistemi, demokratiya, seçki, milli iradə, siyasi məsuliyyət və ictimai tənqid məsələlərini geniş şəkildə şərh edir, hökumətin və siyasi partiyaların xalq iradəsini düzgün təmsil etməməsini tənqid edir. Bu məqalələr dövrün oxucu kütləsi arasında geniş yayılmış və müzakirələrə səbəb olmuşdur.

**Ağaoğlunun jurnalist mövqeyi və prinsipiallığı**

Qəzetin 10 noyabr 1930-cu il tarixli "Yine Prensip Meselesi" məqaləsində Ağaoğlu siyasi prinsipiallıq məsələsinə diqqət çəkir və Sərbəst Fırkaya qarşı yönələn tənqidləri publisistik dildə cavablandırır. "Harada qaldı təmkinlə və qarşılıqlı hörmət çərçivəsində fikir mübadiləsi aparmaq niyyətimiz? "Sərbəst Firqə" ilk dəfə ortaya çıxanda elə həmin Yunus Nadi bəy bu "qardaş təşəkkülü"nü hörmətlə qarşılamış, onun ölkə, dövlət və millət üçün faydalarından böyük həvəslə danışmışdı. Hətta o qədər ki, bəzi adamlar onun da bu firqəyə qoşulduğunu zənn etdilər və o, bu şayiəni təkzib etməyə məcburiyyətində qaldı" (Ağaoğlu, 1930, s 3).

Əhməd bəy Ağaoğlu 17 noyabr 1930-cu ildə "Son Posta" qəzetində "Gazinin Nutku " adlı məqaləsində Gazi Mustafa Kamal Atatürkün nitqini şəxsi və subyektiv yozumların fövqündə duran,

dövlət idarəçiliyinin əsas prinsiplərini müəyyən edən, yeni siyasi mərhələdə millətdən gözlənilən davranış modelini göstərən bir tarixi sənəd səciyyəsi daşıyır. (Ağaoğlu (17 noyabr 1930) s. 1) Ağaoğluya görə "Gazinin Nutku" yalnız keçmiş hadisələrin izahı deyil, gələcək nəsillər üçün siyasi məsuliyyət və milli şüur konsepsiyasıdır. O, Nutkun əsas məziyyətini onun daha çox tarixi məsuliyyət prinsiplərinə söykənməsində, emosional ritorikadan çox onun məntiqi ardıcıllığında və milli iradənin formalaşmasındakı rolunda görür. Məqalədə Əhməd Ağaoğlu Atatürkün öz çıxışı vasitəsilə xalqa və xüsusən də gənc nəsilə müraciət etdiyini, bunu milli dövlətin gələcəyini qorumağa yönəlmiş mənəvi və siyasi vəsiyyət kimi qiymətləndirir. Ağaoğluna görə, Nutkda ifadə olunan əsas fikir türk millətinin taleyinin yalnız xalqın öz iradəsi və şüurlu mövqeyi ilə müəyyən oluna biləcəyidir. Bu yanaşma, müəllifin liberal-milliyyətçi düşüncə xətti ilə də səsləşir. Əhməd Ağaoğlunun "Gazinin Nutku" məqaləsi Atatürk fenomeninin intellektual təhlilini həm erkən Cümhuriyyət dövrü Türkiyə siyasi fikrinin mahiyyətini anlamağa, həm də Ağaoğlunun dövlət, liderlik və milli iradə haqqında baxışlarını dəyərləndirməyə imkan verir. Bu yazı Atatürkün Nutkunun siyasi-mənəvi proqram kimi qəbul edildiyini göstərən əhəmiyyətli publisistik nümunədir. Ağaoğlu Atatürkü millətin mənəvi atası, maarifçi və ideoloji rəhbər kimi təqdim edir. Məqalədə Gazi Mustafa Kamal Atatürk üç əsas cəhətdən xarakterizə olunur: "Ata" və "Maarifçi rəhbər" obrazı, Hüquqi dövlət, Siyasi etikaya əsaslanan idarəçilik modeli (Ağaoğlu (17 noyabr 1930) s. 1).

Ağaoğlu Atatürkün nitqinin rəsmi üslubdan kənar olmasını xüsusilə vurğulayır. Atatürkün xalqla Ata-övlad münasibəti kontekstində danışdığını göstərir. Bu yanaşma Ağaoğlunun liberal-milliyyətçi dünyagörüşünə uyğundur. Məqalədə Atatürkün vurğuladığı üç əsas prinsip xüsusi əhəmiyyət kəsb edir: Ədalət, Dövlət məsuliyyəti və qənaət, Seçki hüququnun toxunulmazlığı. Ağaoğlu bu prinsipləri milli hakimiyyətin real təminatı, Cümhuriyyətin yaşamasının şərti, dövlət-xalq münasibətlərinin etik bazası kimi dəyərləndirir. Bu yanaşma Atatürkün avtoritar lider deyil, konstitusional, hüquqa əsaslanan dövlət başçısı kimi təqdim edir. Məqalənin üçüncü mühüm istiqaməti yeni siyasi mərhələyə çoxpartiyalı həyata münasibətdir. Ağaoğlu Atatürkün mövqeyini belə şərh edir: Fikir, ideya və prinsip uğrunda mübarizə zəruridir və faydalıdır, lakin bu mübarizə şəxsi düşmənçiliyə, kinə və təhqirə çevrilməməlidir. Burada Ağaoğlu liberal demokratiyanın əsas şərtini önə çəkir azadlıq, etik məsuliyyət Atatürkün sitat gətirilən fikirləri ("Hür olun, sərbəst danışın… lakin hürriyyəti sui-ihmal etməyin") bu balansın açıq ifadəsidir. Məqalənin ideoloji və tarixi əhəmiyyəti ondadır ki, Atatürkün siyasi liderliyinə fəlsəfi əsas verir, Cümhuriyyətin ilk illərində demokratikləşmə prosesinə ehtiyatlı, lakin ümidli yanaşmanı ortaya qoyur. "Qazi burada ədalətdən, qənaətdən (israfdan çəkinməkdən), seçki hüququnun toxunulmazlığından bəhs etmiş və bu üç nöqtənin milli nicat üçün əsas prinsiplər olduğunu vurğulamışdır. Bu vurğu ilə biz hamımız bir daha hiss etdik ki, o böyük insan milli vicdanı təşkil edən tellər arasında nə qədər həssas bir nöqtəyə xilaskar kimi əlini qoymuşdur və bizdə içimizdən nə qədər minnətdar, mütəşəkkir və ümidlvar olduq! Milli nicatın digər bir əsas prinsipi də anlaşma, birlik, qarşılıqlı hörmət və məhəbbətə əsaslanan ictimai həmrəylikdir" (Ağaoğlu (17 noyabr 1930) s 1). Ağaoğlu Atatürkü milli iradənin qoruyucusu, siyasi azadlıqların məsuliyyətlə tətbiqinin tərəfdarı, etik dövlət modelinin qurucusu kimi təqdim edir. Böyük İnsan bizə müraciətlə buyurur: "Azad olun, sərbəst danışın, lakin ləyaqətli bir millətin övladı olduğunuzu unutmayın. Bir-birinizə qarşı düşmənçilik doğuracaq hərəkət və sözlərdən çəkinin. bir sözlə, azadlığı sui-istifadə etməyin. Budur, Böyük insanın göstərdiyi nicat yolları!" (Ağaoğlu (17 noyabr 1930) s 4). Əhməd Ağaoğlunun "Gazi'nin Nutku" məqaləsi Atatürk milli dövlətçilik ideologiyasının sadəcə siyasi deyil, həm də əxlaqi və mədəni əsaslara söykəndiyini göstərən qiymətli mənbədir.

Əhməd Ağaoğlu Türkiyənin inkişafı üçün Qərb sivilizasiyasını tam mənimsəməli olduğunu iddia edir. Lakin Ağaoğlu sivilizasiyalar daxilindəki müxtəlif millətlərin dəyişməz və fərqli elementlərə malik olduğunu izah etmək ehtiyacı da hiss edir. Həqiqətən də, o, millətlərin heç vaxt dəyişməməli olan aspektlərinin olduğunu və bunların həmin millət üçün fərqli xüsusiyyətlər olduğunu əlavə edir. Bu aspektlərdən "şəxsiyyət" və "dil" amilini sadalayaraq, bu iki elementdən başqa bütün digər dəyərlərin yeni bir zehni dünya çərçivəsində transformasiya edilə biləcəyinə inanır (Haklı, (2025) s 128). 12 yanvar 1931-ci il tarixdə "Son Posta" qəzetində dərc olunan "Hakkınızı Kaybetmeyiniz" və "Vicdan Azabı Duymayanlara" adlı məqalələrində isə Ağaoğlu siyasi ifratçılıq,

anarxiya və məsuliyyətsizliyin təhlükələrinə diqqət çəkir, ölçülü və nizamlı azadlıq anlayışını müdafiə edir. Bu yazılar dövrün siyasi mühitində geniş rezonans doğurmuşdur. “Hakkınızı Kaybetmeyiniz” yazısında Əhməd bəy vətəndaş hüquqları, siyasi məsuliyyət və azadlığın qorunması mövzularını diqqətə çəkir. Ağaoğlu vurğulayır ki, hüquqlar birdəfəlik qazanılmış və toxunulmaz deyil. Əgər cəmiyyət susqunluğa, qorxuya, laqeydliyə yuvarlanarsa, azadlıqlar tədricən əlindən alına bilər. Bu baxımdan hüquqların itirilməsi zorakılıqdan çox ictimai passivliyin nəticəsi kimi təqdim olunur. Məqalədə azadlıq anlayışı məsuliyyətdən ayrı təsəvvür edilmir. Ağaoğluya görə ölçüsüz və nəzarətsiz azadlıq anarxiyaya, məsuliyyətsiz davranış isə hüquqların ləğvinə bəhanə yaradır. O, ölçülü, hüquqa əsaslanan və nizamlı azadlıq modelini müdafiə edir. Ağaoğlu vətəndaşları öz hüquqlarını bilməyə və müdafiə etməyə, siyasi və ictimai proseslərə biganə qalmamağa çağırır (Ağaoğlu, 1931, s 1).

Ağaoğlunun fikrincə, milli iradənin real mövcudluğu yalnız fəal və məsuliyyətli vətəndaşlıqla mümkündür. Açıq ittihamlardan çəkinən Ağaoğlu, dolayı yolla hakim dairələrə də mesaj verir. Əgər hakimiyyət hüquqları məhdudlaşdırırsa, cəmiyyət bunun nəticələrini ağır şəkildə yaşayacaqdır. Burada siyasi məsuliyyət anlayışı ön plana çıxarılır (Tunaya, (1988) s. 32). Bu məqalə Ağaoğlunun liberal-demokratik baxışlarını, hüquq mərkəzli dövlət anlayışını, vətəndaş-hakimiyyət münasibətlərinə verdiyi əhəmiyyəti aydın şəkildə əks etdirir. Ağaoğlunun “Hakkınızı Kaybetmeyiniz”, “Milli İrade bu mudur?” və “Vicdan Azabı Duymayanlara” kimi yazıları demokratik publisistikanın konseptual xəttini təşkil edir.

“Vicdan Azabı Duymayanlara” adlı yazısında Ağaoğlu, o dövr Türkiyəsindəki siyasi fikir mübarizəsinə və ictimai məsələlərə öz münasibətini ifadə etmişdir. Ağaoğlu yazır "İsmət Paşa həzrətlərinin son bəyanatlarında mənim çoxdan bəri heyranı olduğum bəzi prinsiplər və əsaslar qəti və aydın bir dillə ifadə edilmişdir. Möhtərəm Paşa Cümhuriyyətin tələblərindən irəli gələn vətəndaş azadlıqlarına, mətbuatın sərbəstliyinə riayət olunacağını, həmçinin respublikada əsas sayılan nəzarət üsuluna alışmağın vacibliyini bildirmiş, məsuliyyətsizlik iddiasının anarxiya qədər zərərli olduğunu və respublikaçılar üçün bu iki ifrat cərəyanla mübarizənin bir vəzifə sayılmalı olduğunu vurğulamışdır. O, həmçinin çətinliklərdən keçərək nəhayət bu ölkədə də mötədil və nizamlı bir azadlıq həyatının qurulmasının zəruri olduğunu izah etmişdir. Bu bəyanatın hansı bir mühit və şərait içində verildiyini yaxşı bilirəm. Hər tərəfdən “qır, dağıt, kəs, öldür, yıx, yerlə-yeksan et, terror, bolşevizm, faşizm və sair” kimi təhriklər və təlqinlər aparıldığı bir zamanda, məsuliyyət daşıyan bir şəxsin müvəqqəti hadisələrdən doğan və hər yandan üzərinə axın edən bu çağırışların fövqünə qalxaraq Cümhuriyyətin gələcəyi naminə, Milli Məclisə və dolayısı ilə bütün Millətə müraciət edib bu cür təhrik və təlqinlərə uymayacağını, Cümhuriyyətin tələblərinə əməl edəcəyini bəyan etməsi məncə çox yüksək və təqdirəlayiq bir mənzərədir" (Ağaoğlu, 1931, s 1). Bütün bunlar Əhməd Ağaoğlunun “Son Posta” qəzetində dərc olunmuş yazılarından yalnız bir neçəsidir.

## NƏTİCƏ

Əhməd bəy Ağaoğlunun “Son Posta” qəzetində dərc olunan yazıları Cümhuriyyət dövrü Türkiyəsində siyasi publisistikanın inkişafında mühüm bir mərhələni təşkil edir. Ağaoğlu Türkiyə Cümhuriyyəti və onun lideri Mustafa Kamal Atatürk haqqında düşüncələrini və qənaətlərini vəfat etdiyi dövrə qədər qoruyub saxlamışdır. Onun ideyaları yalnız tarixi baxımdan deyil, həm də müasir demokratik düşüncə kontekstində öz aktuallığını qoruyur. Ağaoğlunun düşüncə və ideyaları yalnız tarixi baxımdan deyil, həm də müasir baxışdan dəyərləndirilməlidir. Onun publisistik irsi Türkiyə və bütövlükdə Türk dünyasında ideoloji konsolidasiyanın formalaşmasına dəyərli töhfələr vermiş və bu baxımdan onun yazıları və görüşləri, araşdırmaçılar üçün qiymətli mənbə olaraq qalmaqdadır.

## ƏDƏBİYYAT


1. Ali Asker, (2025) Hukuk Ansiklopedisi, hukukbook.com/agaoglu-ahmet-bey
2. Ağaoğlu Ə, (18 oktyabr 1930) S.Fırkaya me'şum diyorlar.Şeamet neredеdir? "Son Posta" qəzeti
3. Ağaoğlu Ə, (31 oktyabr 1930). Milli İrade Bu Mudur? "Son Posta" qəzeti
4. Sertel Z. (2001). Hatırladıklarım. İstanbul: Remzi Kitab evi.
5. Ağaoğlu Ə, (10 noyabr 1930). Yine Prensip Meselesi. "Son Posta" qəzeti
6. Ağaoğlu Ə, (17 noyabr 1930). "Gazinin Nutku". "Son Posta" qəzeti
7. Salih Zeki Haklı, (2025),"Ahmet Ağaoğlu'nun Batılılaşma Düşüncesinde Türkiye'nin Toplumsal Yapısı ve Kültürel Değişim" Muhafazakâr Düşünce Dergisi- S. 54, Ağustos 2018, ss.117-141
8. Ağaoğlu Ə, (12 yanvar 1931), Vicdan Azabı Duymayanlara. "Son Posta" qəzeti
9. Tunaya T. Z, (1988). Türkiye'de Siyasal Partiler. İstanbul: İletişimYayınları.
10. Ağaoğlu Ə, (12 yanvar 1931), Hakkınızı Kaybetmeyiniz. "Son Posta" qəzeti



## ABSTRACT

## AHMAD AĞAOĞLU'S WRITINGS IN THE NEWSPAPER "SON POSTA" AND NATIONAL-IDEOLOGICAL VIEWS"

**Mahir Garibov**

Ahmad Agaoglu was one of the prominent representatives of the Turkish intelligentsia of the late XIX and early XX centuries, whose intellectual activity was characterized by profound erudition, high intellectual competence, a well-defined ideological framework, and substantial contributions to the formation and development of the press. Although he relocated geographically when he moved to Istanbul due to persecution and political pressure, he never abandoned his ideological struggle. He became a founding member of numerous societies established for the development of Turkish identity. Aghaoglu authored articles in several prominent periodicals, including Hikmet, Sırat-ı Müstakim, Tercuman-ı Hakikat, and Turk Yurdu. This article examines the journalistic activities of Ahmad Agaoglu in the newspaper Son Posta, which played a significant role in the socio-political life of the early Turkish Republic. Agaoglu's articles published between 1930 and 1931 reflect his views on democratic governance, national will, political responsibility, and the multiparty system. The study analyzes the historical background, editorial structure, and ideological orientation of Son Posta, as well as its place in the Republican-era Turkish press. Furthermore, Agaoglu's writings during the period of the Free Republican Party are evaluated within their political context, highlighting their contribution to the development of political journalism and intellectual discourse in Turkiye.



**Keywords:** *Son Posta newspaper, political journalism, Republican era, national will, Free Republican Party*



## РЕЗЮМЕ

## СТАТЬИ АХМЕДА АГАОГЛУ В ГАЗЕТА «СОН ПОСТА» И ЕГО НАЦИОНАЛЬНО-ИДЕОЛОГИЧЕСКИЕ ВЗГЛЯДЫ

**Махир Гарибов**

Ахмед Агаоглу, один из выдающихся мыслителей тюркского мира, относится к числу представителей интеллигенции, которые в конце XIX - начале XX веков выделялись своими глубокими знаниями, интеллектуальным потенциалом, идейно-мировоззренческими установками и значительным вкладом в развитие журналистики. Несмотря на вынужденный

переезд в Стамбул в связи с преследованиями и политическим давлением, он не отказался от своей идейной борьбы. Агаоглу стал одним из основателей ряда общественных организаций, созданных с целью развития тюркизма, и публиковал статьи в таких периодических изданиях, как Hikmet, Sırat-ı Müstakim, Tercüman-ı Hakikat и Türk Yurdu.

В статье исследуется публицистическая деятельность Ахмеда Агаоглу в газете Son Posta, которая сыграла важную роль в общественно-политической жизни Турецкой Республики в начале XX века. Публикации 1930–1931 годов отражают взгляды Агаоглу на демократическое управление, национальный суверенитет, политическую ответственность и многопартийную систему. В работе анализируются история создания газеты Son Posta, её идейная направленность, редакционный состав и место в системе печати республиканского периода. Одновременно статьи Агаоглу, написанные в период деятельности Партии свободной республики, рассматриваются в контекстуальном плане, а их вклад в развитие политической публицистики в Турции оценивается с научной точки зрения

**Ключевые слова:** *газета Son Posta, политическая публицистика, республиканский период, национальный суверенитет, Партия свободной республики*